**İtaliyada Xocalı soyqırımı anılıb**

Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar İtaliyanın Milan Provinsiyasının Busto Garolfo şəhərində yerli ictimaiyyətin iştirakı ilə anım gecəsi keçirilib. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Comunanın binasının böyük konfrans zalında baş tutan tədbirin təşkilatçıları Azərbaycanın İtaliyadakı Səfirliyi, Busto Garolfo şəhər bələdiyyəsi, Orizon Akademiyası və İtaliyada Azərbaycan Mədəniyyət Assosiasiyasıdır.

Anım gecəsində Azərbaycan Səfirliyinin birinci katibi Erkin Heydərli Milan Provinsiyası Bələdiyyəsinin başçısına tədbirdə iştirakına və mərasimin təşkilində göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib. Daha sonra Azərbaycanın tarixi və müasir dövrü haqqında qısa məlumat verən E. Heydərli Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə danışıb.

Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində həyata keçirdiyi soyqırım, uşaqlara, qadınlara, xəstələrə və dinc əhaliyə qarşı törədiyi vəhşiliklər, öz torpağında günahsız insanların amansızcasına qətlə yetirilməsi iştirakçıların diqqətinə çatdırılıb. İtaliyada Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Mais Nuriyev Xocalı soyqırımından 25 il keçsə də, azərbaycanlıların yaddaşından bu faciəsinin nəinki silinmədiyini, əksinə daha dərin izlər buraxdığını və daha önəmli tarixə çevrildiyini qeyd edib. Milan Provinsiyası Bələdiyyə başçısının xanımı Buondi Susanna isə Azərbaycan dostluq əlaqələrindən danışıb. B. Susanna soyqırımı hadisələrinin ağrılarını hiss etdiyini bildirib.

Tədbirdə Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımından bəhs edən film nümayiş etdirilib. Daha sonra İtaliya Akademiyasının dosenti, xoreoqraf Mais Nuriyevin “Xocalı” kompozisiyası tamaşaçılara təqdim edilib.

Tanınmış italyan şairi, Milan Konservatoriyasının professoru, Azərbaycan Yazıçılar İttifaqının üzvü, Vladimir Delman adına xorun bədii rəhbəri Davide Gualtieri “Xocalı” şeirini bəstələdiyi musiqinin müşayiəti ilə səsləndirib. Həmin şeri Azərbaycan dilində İtaliyada Azərbaycan Assosiasiyasının prezidenti Mais Nuriyev ifa edib. Daha sonra bir çox Azərbaycan şairlərinin şeirləri italyan dilində rəqs və musiqinin müşayiəti ilə səsləndirilib. M. Nuriyev və D. Gualtieri Günel Anarqızının “Qarabağ hekayələri”nin bir hissəsini də italyanca tamaşaçılara təqdim edib.

Tədbirin sonunda iştirakçılar Qarabağ, Xocalı həqiqətlərinə dair müzakirələr aparıb, soyqırımı aktını törədənləri pisləyib. Azərbaycanı sevdiklərini bildirən qonaqlar ölkəmizə səfər etmək arzusundan olduqlarını dilə gətiriblər. Milan kollecinin baş müəllimi Xocalıya həsr edilmiş tamaşanın, rəhbərlik etdiyi kollecdə göstəriləcəyini deyib. Anım gecəsinin keçirildiyi məkanda Xocalı soyqırımına həsr olunmuş xüsusi guşə yaradılıb. Burada “Xocalıya ədalət!” şüarları, broşurlar, Xocalı həqiqətləri haqqında müxtəlif kitablar, şəkillər sərgilənib. Bəzi kitablar qonaqlara hədiyyə edilib.

**Kaspi.-**2017.-7 fevral-№ 22.-S.6.